Tarix və onun problemləri, №1 2010

TALEH ƏLİYEV

# AZƏRBAYCANIN ANTİK VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ ARXEOLOGİYASININ ÖYRƏNİLMƏSİ (1940-60-CI İLLƏR)

***Antik dövrün arxeoloji cəhətdən tədqiqi***: 1940-60-cı illərdə arxeoloqlar tərəfindən antik dövrün tədqiqi tarix elminin əsas məsələlərindən birinə çevrilmişdir. Bildiyimiz kimi antik dövrdə Azərbaycan ərazisində Qafqaz Albaniyası mövcud olmuş və bu dövlət regionda mühüm strateji əhəmiyyətə malik olmuşdur. E.ə. IV – eramızın III əsrlərini əhatə edən antik dövrdə yerli alban tayfaları tarixi-mədəni irs yaratmışlar (9, 447; 10).

Arxeoloji tədqiqat işləri nəticəsində Qafqaz Albaniyasında e.ə. IV – eramızın III əsrlərinə aid iki arxeoloji mədəniyyət – Yaloylutəpə və küp qəbirləri mədəniyyəti müəyyənləşdirilmişdir.

1926-cı ildə Davud Şərifov tərəfindən müəyyənləşdirilmiş Yaloylutəpə qəbristanlığında 1949-1950-ci illərdə İ.M.Cəfərzadənin rəhbərliyi ilə arxeoloji tədqiqat işləri davam etdirilmişdir. Burada 30x10 metr ölçüdə sahədə arxeoloji tədqiqatlar aparılır. Arxeoloji qazıntıların nəticələri Ö.Ş.İsmizadənin **«Yaloylutəpə mədəniyyəti»** adlı monoqrafiyasında çap olunur (8, 17).

Yaloylutəpə mədəniyyəti ayrı-ayrı tədqiqatçılar tərəfindən e.ə. IV-I və ya e.ə. III-I əsrlərə aid edilir. 1940-60-cı illərdə arxeoloji qazıntılar zamanı Yaloylutəpə mədəniyyətinin oxşar nümunələri Azərbaycanın bir çox yerlərindən, eləcə də müasir Gürcüstan (Borçalı) ərazisindən, Kiçik Asiyanın Egey dənizi sahillərindən və Cənubi Azərbaycandan aşkar olunmuşdur Bu isə e.ə. IV-I əsrlərdə Azərbaycan (Albaniya) sakinlərinin qeyd edilən ölkələrlə yaxın mədəni və ticarət əlaqələrinin olmasını sübut edir (10).

1941-ci ildə İ.M.Cəfərzadə tərəfindən Cəlilabad rayonunun Uzuntəpə yaşayış yerində, S.M.Qazıyev tərəfindən Qəbələ rayonunda ilkin tədqiqat işləri aparılır. Lakin Böyük Vətən müharibəsi ilə əlaqədar bu tədqiqatlar genişləndirilmir. Müharibədən sonra arxeoloji qazıntılar böyük vüsət alır (8, 16).

Küp qəbirlər mədəniyyətinin öyrənilməsində Azərbaycanın görkəmli arxeoloqu S.M.Qazıyev tərəfindən 1946-1953-cü illərdə Mingəçevirdə aparılan arxeoloji tədqiqatların rolu çox böyük olmuşdur. Bu tədqiqatlar nəticəsində qədim albanların əsas yaşayış yerlərindən olan Mingəçevirdə, Kür çayı sahilində saysız-hesabsız küp qəbirləri, o cümlədən, küp qəbirləri mədəniyyətinə aid bir sıra məişət-təsərrüfat abidələri tapılmışdır.

1948-ci ildə Q.M.Əhmədov tərəfindən Qəbələ rayonu ərazisində Şəfili kəndində Koçalançayın sahilində arxeoloji tədqiqat işi aparılmışdır. Tədqiqatlar nəticəsində e.ə. I əsrə aid Yaloylutəpə mədəniyyəti üçün səciyyəvi olan materiallar əldə olunmuşdur.

1952-ci ildə T.İ.Qolubkin İsmayıllı, Ucar, Ağdaş, Qəbələ rayonlarına və Dağlıq Qarabağ ərazisinə səfər etmiş, nəticədə bu ərazidə küp qəbirlər mədəniyyətinə məxsus abidələrin mövcudluğunu söyləmişdir.

1955-1956-cı illərdə K.X.Kuşnarev Ağdam yaxınlığında Üzərliktəpə abidəsində 13 küp və torpaq qəbir açmış, o cümlədən, Yaloylutəpə mədəniyyətinə məxsus materiallar üzə çıxarmışdır (8, 17-18).

Küp qəbirlərin yeni qrupu 1958-ci ildə C.Ə.Xəlilov tərəfindən Şamaxı şəhəri yaxınlığındakı Xınıslı qədim yaşayış yerində qeydə alınmışdır. Burada abidələr hələ ilk dəfə 1939-cu ildə qeydə alınmışdır. 1958-ci ildə aparılan arxeoloji qazıntı işləri nəticəsində e.ə. IV-I əsrlərə aid Makedoniyalı İsgəndərin pullarına oxşar yerli sikkələr və

Roma imperiyasına məxsus dinarilər tapılmışdır. Sonrakı illərdə tədqiqatçı tərəfindən burada ətraflı arxeoloji qazıntılar aparılmış və dəyərli maddi-mədəniyyət nümunələri əldə edilmişdir (8, 18-19; 10; 11).

50-ci illərin sonunda Şamaxı arxeoloji ekspedisiyası Mərəzə, Dağ Kolanı, Çaxnaq və digər yerlərdə antik dövrə aid materiallar üzə çıxarmışdır (8, 20).

1959-1962-ci illərdə görkəmli tədqiqatçı R.M.Vahidov tərəfindən Qax rayonunda arxeoloji qazıntılar aparılmış və Torpaqqala abidəsi üzə çıxarılmışdır. Torpaqqalada xeyli küp qəbirlərə təsadüf olunmuşdur. (8, 20-21).

Tədqiqatçı Q.M.Aslanov tərəfindən Ağyazı ərazisində I əsrə – 40-51-ci illərə aid katakomba qəbirləri tədqiq olunmuş və zəngin əşyalar, o cümlədən, arşakilərə məxsus gümüş drahmalar əldə olunmuşdur (8, 21).

Tədqiqatçı F.R.Mahmudov tərəfindən Qarabulaq kəndindən şimalda, Ağrıçayın sol sahilində arxeoloji qazıntılar aparılmış və nəticədə Yaloylutəpə mədəniyyəti, o cümlədən, eramızın I əsri üçün səciyyəvi olan maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.

1959-cu ildə qədim Qəbələ ərazisində S.M.Qazıyevin rəhbərliyi ilə arxeoloji qazıntı işlərinə başlanıldı. Qazıntılar nəticəsində antik dövr Qəbələ şəhərinin qalıqları, xeyli arxeoloji material, zəngin nümunələr əldə olunmuşdur. Arxeoloq İ.A.Babayev tərəfindən Qəbələ ərazisində antik dövrə aid xeyli material əldə olunmuş və tədqiq edilmişdir. 1967-ci ildə başlanan tədqiqatlar nəticəsində tikinti qalıqları, əmək alətləri və s. öyrənilmişdir. Ərazidən Makedoniya və Selevki pulları, o cümlədən, onlara oxşar yerli sikkələr tapılmışdır (8, 21).

1963-cü ildə arxeoloq F.L.Osmanov tərəfindən Göyçay və Ağsuçay hövzəsində (8, 22), 1965-ci ildə isə arxeoloq A.B.Nuriyev tərəfindən Şamaxı rayonunda arxeoloji tədqiqatlar aparılmışdır. Arxeoloji qazıntılar nəticəsində Şərgah adlı yerdə küp qəbirlər mədəniyyətinə aid qədim qəbristanlıq yeri aşkar edilmişdir.

1966-cı ildə Qazax rayonundan şimalda, Ağstafaçayın sol sahilində katakomba qəbirləri açılmışdır. Bu qəbirlər eramızın I əsrinə aid Mingəçevirin katakomba qəbirləri ilə həmdövrdür (8, 22).

Tədqiqatçı Q.S.İsmayılzadə 1968-ci ildə Qaraköpəktəpə abidəsində arxeoloji qazıntı işləri aparılmışdır. Bu tədqiqat küp qəbirlər mədəniyyətinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

***İlk orta əsrlər arxeologiyasının öyrənilməsi***: Azərbaycan ərazisində ilk orta əsr maddi mənbələri 1940-60-cı illərdə həyata keçirilən arxeoloji qazıntılar nəticəsində sistemli şəkildə öyrənilmişdir. İlk orta əsrlər arxeologiyasının öyrənilməsində ən mühüm tədqiqatlar sırasında 1946-1953-cü illərdə Mingəçevirdə aparılan qazıntılar ön yerdə durur. Mingəçevirdə aşkar olunmuş abidələrdən 2 və 3 nömrəli yaşayış yerləri ilk orta əsrlər dövrünə aid edilmişdir (3; 5). 2 nömrəli yaşayış yerinin əsas abidələri yaşayış binaları, məbəd qalıqları, dulus kürələri, qəbristanlıqlar, qazıntı təbəqələrindən tapılan istehsal alətləri, epiqrafik materiallar və məişətdə işlənən çoxlu miqdarda başqa arxeoloji nümunələrdən ibarətdir. 2 nömrəli yaşayış yerindən tapılan ən qədim sikkə III əsrin sonu – IV əsrin əvvəllərinə aid olan Roma puludur (5).

3 nömrəli yaşayış yerinin əsas arxeoloji abidələrini yaşayış binaları, müxtəlif təbəqələrdən aşkar edilən istehsal alətləri və başqa maddi-mədəniyyət nümunələri təşkil edir. (1; 3; 4; 5).

1953-cü ildə 3 nömrəli yaşayış yerində aparılan arxeoloji tədqiqat işləri zamanı mədəni təbəqələrin altında xam torpaqda 5,5-6 metr dərinlikdən katakomba və taxta qutu qəbirləri üzə çıxmışdır. Qəbir avadanlığı və katakomba qəbirlərinin birindən tapı-

lan Arşaki hökmdarı Qotarsın (41-51) sikkə nümunəsi bu qəbirləri eramızın I-II əsrlərinə aid etməyə imkan verir (7, 19).

Yaşayış yerindən tapılan Sasani şahı I Şapurun (241-272) adından zərb edilmiş sikkə tapıntısı isə 3 nömrəli yaşayış yerinin III əsrdən mövcud olduğunu sübut edir.

2 və 3 nömrəli yaşayış yerlərinə aid olan ilk binalar saman və qum qatılmış gil möhrələrdən tikilmişdir. Otaqların torpaq döşəməsində bir neçə yerdə ocaq qalıqları aşkar olunmuşdur (7, 19).

Mingəçevirin 2 və 3 nömrəli yaşayış yerlərindən çoxlu təsərrüfat quyuları, küplər və təndirlər də aşkar edilmişdir. Qazıntılar zamanı əksər qismi metaldan olan ev avadanlığı tapılmışdır. Bunlardan sacayağı, vedrə, cam, dəmir çömçə, ərsin, tunc abgərdən, təknə və s.-ni göstərmək olar. Mingəçevirin ilk orta əsr yaşayış yerlərindən müxtəlif yerli və gətirmə şüşə məmulatı nümunələri də tapılmışdır (3; 7, 28).

Azərbaycanın orta əsr şəhər yerlərində aparılan qazıntılar zamanı eyni məqsəd üçün işlədilən təsərrüfat quyularına və küplərə təsadüf edilmişdir. Ərzaq saxlamaqda əlverişli xüsusiyyətlərinə görə quyular və xüsusilə iri küplər son zamanlara qədər, hətta indi də bir çox rayonlarda istifadə edilməkdədir.

Mingəçevirin ilk orta əsr yaşayış yerlərində iki təndir aşkar edilmişdir. Hər iki təndirin divarı gildən hörülmüş və istiliyi yaxşı saxlamaq üçün içərisinə saxsı parçaları qoyulmuşdur. Təndirlərin içərisinin qırmızımtıl rəngi, möhkəm və hamar daxili səthi onun uzun müddət istifadədə olduğunu göstərir (7, 28-29).

Yaşayış yerlərinin I və II təbəqələrindən toplanılmış saxsı məmulatı arasında forma və biçimləri etibarı ilə böyük oxşarlıq vardır. Demək olar ki, birinci təbəqənin gil qab nümunələrinin hamısı ikinci təbəqədə də təsadüf olunmuşdur (7, 34).

Ərazidən bilərziklər, sancaqlar, üzüklər və toqqalar da tapılmışdır ki, bunlar da ilk orta əsr bəzək əşyalarının tədqiq olunmasında mühüm rol oynamışdır. Belə nümunələr Roma, Bizans, Sasani, Finikiya, Suriya, Çin, Hindistan, Qara dəniz sahili ölkələrinə və başqa yerlərə aiddir (7, 58-63).

Mingəçevirin ilk orta əsr arxeoloji abidələri içərisində möhürlər xüsusi yer tutur. Çox hissəsi katakomba qəbirlərindən, az qismi isə yaşayış yerlərindən və ilk xristian qəbirlərindən aşkar olunan möhürləri iki başlıca qrupa bölmək olar: 1) Qaşında təsvir olan üzüklər; 2) Yanlardan batıq olan yarımkürəvi möhürlər (7, 63-64).

Qazıntılar nəticəsində 2 və 3 nömrəli yaşayış yerlərindən əldə edilən və əhalinin müxtəlif təsərrüfat sahələrini əks etdirən alət və silahlar diqqəti xüsusilə cəlb edir.

Küp qəbirlərdə və ilk orta əsr yaşayış yerlərində aşkar olunmuş dəmir oraqların görkəmli qismi kiçik ölçüdə olduğundan, onlar Mingəçevir arxeoloji ekspedisiyasının sənədlərində «oraqvari bıçaq» adı ilə qeyd olunmuşdur (7, 69).

Mingəçevirin ilk orta əsr yaşayış yerlərində iki ədəd barmaqlıq tapılmışdır. Taxıldöyən əmək alətləri də məhz 2 və 3 nömrəli yaşayış yerlərindən üzə çıxarılmışdır (7, 69).

Təsərrüfat küpləri 2 və 3 nömrəli yaşayış yerlərinin ən çox I və II mədəni təbəqələrində tapılmışdır. 1948-ci ildə 3 nömrəli yaşayış yerində aparılan qazıntılar zamanı ikinci qazıntı sahəsində yan-yana düzülmüş 6 ədəd iri təsərrüfat küpü aşkar olunmuşdur ki, bunlar da taxıl ehtiyatı üçün istifadə olunmuş küplərdir (7, 72).

Arxeoloji qazıntılar ilk orta əsrlərdə Mingəçevir ərazisində üzümçülük, bağçılıq və bostançılıq kimi təsərrüfat sahələrinin inkişafını göstərən materialları üzə çıxarmışdır (7, 74).

Arxeoloji qazıntılar ilk orta əsrlərdə Mingəçevirdə sənətkarlığın müxtəlif sahələrinin inkişaf etdiyini göstərir. Buradan aşkar olunan materiallar sənətkarlığın daha çox dulusçuluq və toxuculuq sahələrinin inkişaf etdiyini sübut edir (4; 7, 82-84).

Arxeoloji materiallar sübut edir ki, bu dövrdə Qafqaz Albaniyası İberiya, Kolxida, Roma, Sasani, Qara dəniz sahili şəhərlərlə ticarət və xarici əlaqələr saxlamışdır (7, 88).

Mingəçevir qazıntıları zamanı ilk orta əsrlərə aid mənəvi mədəniyyət abidələri də aşkar edilmişdir. Belə abidələrin əsas hissəsini xristianlığa aid məbədlər təşkil edir. Mingəçevir xristian məbədləri çiy kərpicdən hörülmüş bir nefli sadə məbədlərdir. Bunlardan ikinci məbəd xüsusi əhəmiyyət kəsb edir. Məhz buradan üzərində alban əlifbasının 52 hərfi olan dördkünc formalı daş tapılmışdır. Məbədin mehrabından tapılmış yazılı daşın iri ağac xaçın bazası olması güman edilir (3; 7, 94-97).

Üzərində alban yazısı olan bu bazanın fasad hissəsində qarşı-qarşıya dayanmış iki tovuzquşu və onların arasındakı «dirilik ağacı»nın qabarıq təsviri bütün dövr tədqiqatçılarının marağına səbəb olmuşdur. Tovuz quşunun boynunda olan lent şərq ölkələrində geniş yayılmışdır. Hətta Sasani şahlarının geyiminin və tacının ayrılmaz bir hissəsi olmuşdur. Üzərində alban yazısı olan bu daşı tədqiqatçı R.M.Vahidov V-VI əsrlərə aid etmişdir.

Mingəçevirin məbədlər sahəsindən tapılan, üzərində alban yazıları olan şamdanlar da xüsusi elmi əhəmiyyət kəsb edir. Ümumilikdə, Mingəçevirdə 8 epiqrafik abidə aşkar olunmuşdur (1; 3; 5; 6, 121-126).

Qafqaz Albaniyasının tədqiq olunmuş digər əsas xristian abidəsi Qəbələ rayonunun Böyük Əmili kəndinin şimal-qərbində yerləşən Kilsədağı abidəsidir. Kilsədağı dairəvi xristian məbədinin ilkin arxeoloji tədqiqi və memarlıq xüsusiyyətləri onu VII-VIII əsrlərə aid etməyə imkan vermişdir.

Qafqaz Albaniyasında xristianlıqla birlikdə digər dinlər – zərdüştlük və bütpərəstlik də olmuşdur. Zərdüştlük və bütpərəstlik dinlərinin qalıqları özünü, əsasən, qəbir abidələrində və müxtəlif bütlərdə büruzə verir.

Azərbaycan ərazisində əsası ilk orta əsrlərdə qoyulmuş bir sıra müdafiə tikililəri də öyrənilib tədqiq edilmişdir. Belə tikililərdən 120 km-ə qədər uzunluğu olan Beşbarmaq və Gilgilçay sədlərini göstərmək olar. Qafqaz Albaniyasının əsas şəhərlərindən olan Dərbənd ətrafında tikilmiş müdafiə səddi də ilk orta əsrlərə aiddir. Uzunluğu 40 km olan bu sədd qədim dövrlərdən bəri bir neçə dəfə bərpa olunmuşdur (2, 57-59; 10; 11; 12).

S.M.Qazıyevin rəhbərliyi ilə aparılan Mingəçevir qazıntılarında (1946-1953) arxeoloji ekspedisiyanın tərkibində mühüm tədqiqatlar aparmış arxeoloq R.M.Vahidov həmin tədqiqatların ilk orta əsrlər dövrünə aid materialları haqqında 1961-ci ildə «Mingəçevir III-VIII əsrlərdə» adlı monoqrafiyasını yazmışdır (7).

## *ƏDƏBİYYAT*

1. Göyüşov R.B. Azərbaycan arxeologiyası, Bakı 1986
2. Hüseynov M.M, İsmayılov Q.S. Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri, Bakı 1981
3. Məmmədov A.M. Gəncəbasarın alban dövrü xristian abidələri, Bakı 2000
4. Məmmədov A.M. Qoşqarçay və Kürəkçay hövzəsinin tarixi-arxeoloji tədqiqi, Bakı 2000
5. Mingəçevir arxeoloji ekspedisiyası – 60, Mingəçevir 2006
6. Геюшев Р.Б. Христианство в Кавказской Албании, Баку 1984
7. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə, Bakı 1961
8. Халилов Дж.А. Материальная культура Кавказской Албании, Баку 1985
9. Yusifov Y. Qədim Şərq tarixi, Bakı 1993
10. History of Derbend. http: // eng.kavkaz.memo.ru / encyclopedia text / engencyclopedia / id / 567473.html
11. Caucasian Albania. http: // archaeology news.multiply.com / cournal / itenal / 416
12. Дон и Северный Кавказ. щттп: //www.vic.rsuru/pon-uc

**ТАЛЕХ АЛИЕВ**

**ИЗУЧЕНИЯ АНТИЧНОЙ И РАННЕСРЕДНЕВЕКОВОЙ АРХЕОЛОГИИ АЗЕРБАЙДЖАНА В 1940-60-Х ГОДАХ**

Настоящая статья представляет собой обзор археологического изучения памятников античного времени и средневековья в Азербайджане в 1940-60-х годах. В результате широкомасштабных археологических исследований Азербайджанскими археологами выявлена целая серия археологических комплексов которыми значительно расщирены нашие представления о указанных периодах.

**TALEH ALİYEV**

**THE LEARNİNG OF ANTİQUE AND EARLY MİDDLE AGES ARCHAEOLOGY OF AZERBAİJAN (1940-1960 YEARS)**

These ages reflected more imrotant statehood era of Azerbaijan – the period of Caucasian Albania.

İn 1940-1960 years the archaeological monuments explored by İ.Jafarzadeh, Q.İsmailzadeh, T.Golubkin, G.Ahmadov, J.Khalilov, R.Vahidov, Q.Aslanov, F.Mahmudov, S.Gaziyev, F.Osmanov, A.Nuriyev and other scientists. The archaeological exavations directed in Shamakhi, Mingechevir, Gabala, Barda, Ganja, Beylagan and other ancient cities of Azerbaijan.

The famous archaeolog R.Vahidov wrote the scientific work about results of Mingechevir exavations which called «Mingechevir in III-VIII centuries».

***Rəyçilər: t.e.d.Q.S.İsmayılzadə, t.e.d.A.M.Məmmədov.***

***BDU Tarix fakültəsi Arxeologiya və Etnoqrafiya kafedrasının 18 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***